DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (331) / FEVRAL 2019-CU İL

## XOCALI SOYQIRIMININ 27-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA ÜMUMXALQ YÜRÜŞÜ KEÇİRİLİB

***Azərbaycan Prezidenti İlham Əliyev yürüşdə iştirak edib***



Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı – XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı – 27 il", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalı, sözün bitdiyi yer", "Viran edilən Xocalı yenidən dirçələcək" və s. şüarlar nümayiş etdirilirdi.

Ümumxalq yürüşü iştirakçılarının hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 27 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər.

davamı səh. 2

**BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA GƏNCƏDƏ "İMAMZADƏ" DİNİ KOMPLEKSİNİ ZİYARƏT EDİB**



Səh. 3

**HACIQABULDA "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR" MÖVZUSUNDA REGİONAL KONFRANS İŞƏ BAŞLAYIB**



Səh. 5

**SABİRABADDA "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK" MÖVZUSUNDA İKİGÜNLÜK SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB**



Səh. 10

**"Bu gün gəncliyimiz milli-mənəvi və dini dəyərlərimizə sadiqliyi baxımından mövcud vəziyyəti adekvat qiymətləndirməyi çox yaxşı bacarır"**



Səh. 11

əvvəli səh. 1 Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

* * *

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

* * *

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" kanalına müsahibə verdi.

* * *

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında – indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti apardılar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən



gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını, sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu 2016-cı il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən 2016-cı ilin Aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

* * *

Bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.

**AZƏRTAC**

# Prezident İlham Əliyev «Rossiya-24» telekanalının müxbirinə müsahibə verib



Fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.

**Müxbir: Azərbaycan xalqının dərdinə şərikik. Həlak olanların ailələrinə, doğmalarına başsağlığı veririk. Bu gün Siz insanlara, Azərbaycan sakinlərinə, bu dərdi bölüşənlərə hansı sözlərlə müraciət edirsiniz?**

**Prezident İlham Əliyev:** Çox sağ olun ki, gəlmisiniz. Azərbaycan xalqının tarixindəki bu faciəli hadisəyə münasibətinizi bildirirsiniz. Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar - qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaq. Bu, bizim yaddaşımızda həmişəlik qalacaq. Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın. Daha heç vaxt heç bir xalqa qarşı belə dəhşətli soyqırımı hadisəsi, milli əlamətə görə qırğın törədilməsin. Azərbaycan dövləti, xalqı həlak olanların xatirəsini əziz tutur, yad edir və onların xatirəsi bizim üçün müqəddəsdir. Həmin faciəli gecədə xilas olanlar həmişə bizim üçün fiziki zədələr, mənəvi yaralar alan, həmin qətliamı yaşayan insanlar kimi qalacaqlar. Biz bu adamların aqibətini yüngülləşdirmək üçün əlimizdən gələni edirik, dövlət onlara kömək edir və edəcək. Bir daha demək istəyirəm, biz hamımız çalışmalıyıq ki, belə faciələr bəşəriyyət tarixində bir daha olmasın.

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA GƏNCƏDƏ "İMAMZADƏ" DİNİ KOMPLEKSİNİ ZİYARƏT EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncə şəhərinə səfər ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Birinci vitse-prezidentə son illərdə şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verib.

Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncəyə səfər çərçivəsində "İmamzadə" dini kompleksini ziyarət ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksinin yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul etdiyini bildirib. Qeyd edilib ki, bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.



Mehriban Əliyevaya və Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edilib.

"İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Birinci vitse-prezident Mehriban Əliyeva burada ziyarətə gələnlərlə görüşüb.

Qeyd edək ki, fevralın 14-də "İmamzadə" kompleksində Azərbaycanın Birinci vitse-prezidentinin adından ehsan süfrəsi verilib.

# GƏNCƏNİN "İMAMZADƏ" DİNİ KOMPLEKSİNDƏ EHSAN SÜFRƏSİ AÇILIB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın adından Gəncənin "İmamzadə" dini kompleksində ehsan verilib.

Kompleksin mərasim zalında 1000 nəfər üçün ehsan süfrəsi açılıb. Ehsan süfrəsində Gəncə və ətraf rayonlarda yaşayan din xadimləri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları, məcburi köçkünlər və aztəminatlı ailələrin üzvləri bir araya gəliblər.

Mərasim Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, ruhlarına dualar oxunub.

Ehsandan mərasimdə iştirak edə bilməyən aztəminatlı ailələrə, Uşaq Evinin sakinlərinə pay göndərilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın adından Gəncənin "İmamzadə" dini kompleksində ehsan verilib.

Kompleksin mərasim zalında 1000 nəfər üçün ehsan süfrəsi açılıb. Ehsan süfrəsində Gəncə və ətraf rayonlarda yaşayan din xadimləri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları, məcburi köçkünlər və aztəminatlı ailələrin üzvləri bir araya gəliblər.

Mərasim Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, ruhlarına dualar oxunub.

Ehsandan mərasimdə iştirak edə bilməyən aztəminatlı ailələrə, Uşaq Evinin sakinlərinə pay göndərilib.

# XOCALI SOYQIRIMINI TÖRƏDƏNLƏR İLLƏRLƏ ERMƏNİSTANI İDARƏ ETDİLƏR



Fevralın 25-dən 26-na keçən gecə ermənilər sovet tankları və Sovet İttifaqının 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalı şəhərinə hücum etdilər. Xocalı şəhəri bir gecədə yer üzündən silindi, 613 nəfər, o cümlədən qadınlar, uşaqlar və yaşlılar vəhşicəsinə qətlə yetirildi. Yüzlərlə sakin əsir alındı. Onlardan 150-dən çoxunun taleyi hələ də məlum deyil. Ermənilər dinc əhalinin yaşadığı şəhərdə insanlığa sığmayan dəhşətli qətliam törətdilər. Xocalı soyqırımını törədənlər sonradan Ermənistanda illərlə baş nazir və prezident vəzifələrində ölkəni idarə etdilər. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Xocalıdakı qətliama israrla bəraət qazandıraraq, o gecə törətdiklərini etiraf etdi.

Bunu Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənov Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib.

İyirmi yeddi il əvvəl törədilən Xocalı faciəsinin ermənilərin son 200 ildə azərbaycanlılara qarşı törətdikləri soyqırımlarından biri olduğunu vurğulayan Əli Həsənov ermənilərin Qafqazda möhkəmlənmək üçün həyata keçirdikləri etnik təmizləmə siyasətinin bunun ən mühüm səbəbi olduğunu bildirib. Ermənilərin bu siyasəti havadarlarının dəstəyi ilə həyata keçirdiklərini qeyd edən Prezidentin köməkçisi deyib: “Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. “Böyük Ermənistan” xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda soyqırımları törədiblər. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar. 1915-1918-ci illərdə ermənilər Bakıda, Qubada və Azərbaycanın digər bölgələrində Xocalı qətliamından daha qanlı və insan tələfatı baxımından daha böyük soyqırımları törədiblər. Ermənilər həmin dövrdə təkcə Bakıda təxminən 20 min nəfəri qətlə yetiriblər. Daha sonra 1948-1953-cü illərdə Sovet İttifaqı tərəfindən 150 min azərbaycanlı Ermənistandan deportasiya edilib. Bununla da Ermənistanda heç bir türkün və müsəlmanın qalmaması ilə bağlı məqsədlərinə çatmaq yolunda böyük addım atılıb”.

Ermənilərin 1988-ci ildən Sovet İttifaqının dağılmasına qədər olan dövrdə azərbaycanlılara qarşı açıq şəkildə torpaq iddiası qaldırdıqlarını bildirən Əli Həsənov bu işğalçılıq siyasəti nəticəsində 1988-1994-cü illərdə Dağlıq Qarabağ bölgəsinə və ətraf rayonlara fasiləsiz hücumların olduğunu vurğulayıb. İşğal nəticəsində bir milyondan çox azərbaycanlının məcburi köçkünə çevrildiyini, yaşayış məntəqələrinin yerlə-yeksan edildiyini, kütləvi qətliamların törədildiyini deyən Prezidentin köməkçisi Xocalı soyqırımının bunların arasında ən qanlı faciə olduğunu deyib.

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin bütün dünyaya çatdırılmasında Anadolu Agentliyinin də rolunu xüsusi vurğulayan Əli Həsənov deyib: “Qətliamdan sonra bütün dünya mediası yaşanan dəhşəti öz səhifələrində təqdim etdi. Azərbaycan həmin dövrdə informasiya blokadasında idi. Bu blokada Anadolu Agentliyinin dəstəyi ilə yarıldı və soyqırımı həqiqətləri dünyaya çatdırıldı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının dəstəyi ilə Prezident seçilməsindən sonra ölkəmiz sürətlə inkişaf etməyə başladı. Bütün sahələrdə olduğu kimi, media sahəsində də əsaslı dəyişikliklər baş verdi. İndi Azərbaycan mediası dünyanın ən güclü media qurumları ilə rəqabət aparacaq səviyyədədir”.

Ermənistanın işğalçılıq siyasətini bu gün də davam etdirdiyini bildirən Əli Həsənov BMT, Avropa İttifaqı, Avropa Şurası və NATO kimi beynəlxalq qurumların qərar və qətnamələrinin tələblərinin yerinə yetirilmədiyini diqqətə çatdıraraq, Ermənistanın işğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etməsinin vacibliyini vurğulayıb.

“Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi hər an qanlı müharibəni alovlandıra bilər”, - deyən Əli Həsənov 2016-cı ilin Aprel döyüşlərinin yeni bir müharibənin necə ağır nəticələr doğura biləcəyini göstərdiyini bildirib: “2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun qısa müddətdə öz torpaqlarını işğaldan azad etmək gücündə olduğunu Ermənistana və bu ölkənin himayədarlarına göstərdi. Bu gün müasir silahlara sahib olan Azərbaycan Ordusu dünyanın ən güclü və hazırlıqlı ordularından biridir. Ermənistanın işğalçılıq siyasətinin davam etməsi hər an qanlı müharibənin fitilini alovlandıra bilər. Bu müharibədə on, bəlkə də yüz minlərlə insan həlak ola bilər. Amma biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllinin tərəfdarıyıq. BMT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi mötəbər beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət olaraq tanıyıb, işğal altındakı torpaqların azad olunmasını tələb ediblər. Lakin ermənilər beynəlxalq hüquq normalarına, bu qərar və qətnamələrə hörmətsizlik göstərirlər”.

Türkiyə ilə Azərbaycan arasında sarsılmaz əməkdaşlığın olduğunu vurğulayan Əli Həsənov 2007-ci ildə Bakıda keçirilən qurultayın bunun konkret göstəricisi olduğunu bildirib. İkitərəfli əlaqələrin dövlətlərimizin başçılarının birgə səyləri ilə daha da gücləndiyini qeyd edən Prezidentin köməkçisi deyib: “Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə, indi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün bütün lazımi addımları atıb və atmağa davam edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev “Bir millət, iki dövlət” olduğumuz kimi, “iki dövlət, bir lobbi”, “iki dövlət, bir diaspor” istiqamətində qəti iradə nümayiş etdirirlər.

2007-ci ildən etibarən bütün dünyada Türkiyə və Azərbaycanı təmsil edən lobbi və diasporlar həm Ermənistanın uydurma soyqırımı iddialarına qarşı, həm də Xocalı soyqırımının dünyaya çatdırılması məsələsində birlikdə mübarizə aparır. Buna dövlətlərimiz, ziyalılarımız, universitetlərimiz, tələbələrimiz, bütün sosial media vasitələrimiz və dövlət təşkilatlarımız dəstək verir. Erməni diasporu və dövləti, qondarma soyqırımı iddialarını davamlı olaraq gündəmdə saxlamaqla, əslində, Xocalı soyqırımını unutdurmağa çalışır. Hər il beynəlxalq platformalarda ermənilərin soyqırımı iddialarının yalan olduğunu, əslində ermənilərin Anadolu türklərinə və azərbaycanlılara qarşı qırğınlar törətdikləri ilə bağlı bütün həqiqətləri dünyaya çatdırırıq. Dünya artıq bir virtual informasiya şəbəkəsinə çevrilib. Türkiyə və Azərbaycan sosial şəbəkələrdəki mübarizədə birgə hərəkət etməlidir. Biz, iki qardaş dövlət olaraq, birlikdə fəaliyyət göstərməyin gücümüzə güc qatacağına inanırıq”.

Əli Həsənov qondarma soyqırımı iddialarını qəbul edən ölkələrdə ermənilərin lobbiçilik fəaliyyəti barədə danışaraq deyib: “Bəzi Avropa dövlətləri Ermənistanın heç bir sübutu olmayan qondarma soyqırımı iddialarını tanıyır. Lakin 27 il əvvəl bütün dünyanın gözləri qarşısında törədilən Xocalı qətliamını hansı səbəbdən görmür? Amma biz burada da işləri dayandırmamalıyıq. Bu dövlətlərin ictimaiyyəti, parlamenti, vətəndaş təşkilatları və xalqı ilə çalışmalıyıq. Biz konfranslar təşkil edərək onlara faktları çatdırmalıyıq. Biz ermənilərin soyqırımı iddialarının yalan olduğunu və 27 il əvvəl Xocalıda baş verənlərin həqiqət olduğunu anlatmalıyıq. Bunu hamımız birlikdə etməliyik. Azərbaycan diasporunun güclü olduğu yerdə azərbaycanlılar, türk diasporu güclü olan yerdə türklər bu məsələni gündəmdə saxlamalıdırlar”.

İslam dünyasına çağırış edən Əli Həsənov söhbətini bu sözlərlə yekunlaşdırıb: “Bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq platformalarda Türk-İslam dünyasının maraqlarının qorunması və mövcud problemlərin həlli üçün birlikdə hərəkət edir. Bütün dünyada müsəlmanlara qarşı təzyiqlərə ən çox sinə gərən ölkələrin Türkiyə və Azərbaycan olması inkar edilə bilməz bir həqiqətdir. İslam dünyasının mövcud problemlərinə qarşı da heç bir zaman laqeyd qalmadıq. İslam dünyasındakı dövlətlər də bizim problemlərimizə biganə qalmamalı, həm Xocalı soyqırımının tanınmasında, həm də ermənilərin qondarma soyqırımı iddialarına qarşı mübarizədə iştirak etməlidir. Unutmamalıyıq ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında həm müsəlman qırğını törədib, həm də müsəlmanların müqəddəs yerlərini dağıdıblar”.

## «XOCALIYA ƏDALƏT!» KAMPANİYASI ÇƏRÇİVƏSİNDƏ AĞACƏKMƏ AKSİYASI KEÇİRİLİB



Fevralın 26-da “Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində Bakının Suraxanı rayonundakı “Neftçilər” parkında ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” kampaniyasının təşəbbüskarı Leyla Əliyeva aksiyada iştirak edib.

Suraxanı rayon gənclərinin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin nümayəndələrinin iştirak etdikləri aksiyada Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 613 ağac əkilib. Aksiyada 200-dən çox gənc iştirak edib.

“Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir. Kampaniya Xocalı soyqırımının, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədi daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsinə, sağ qalmış ailələrə dəstək göstərilməsinə, bu hadisələrin yaddaşlarda yaşamasına, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib. Kampaniya çərçivəsində təşkil edilən tədbirlərdə əsas diqqət kütləvi qırğınlara, etnik təmizləmə, irqi və ya dini ayrı-seçkilik hallarına qarşı güclü müqaviməti nümayiş etdirməyə, Xocalı soyqırımı qurbanları ilə həmrəyliyi ifadə etməyə və Xocalıda azərbaycanlılara qarşı törədilmiş cinayətlərə görə cəzasızlıq halları ilə mübarizəyə istiqamətlənib. Bu kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir.

# HACIQABULDA "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR" MÖVZUSUNDA REGİONAL KONFRANS İŞƏ BAŞLAYIB

Fevralın 27-də Hacıqabulda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb.

İki gün davam edəcək konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Hacıqabul Rayon İcra Hakimiyyətinin rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak edirlər.

Konfransda ölkəmizdə dini durum, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinin, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.



Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış edərək, son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Hacıqabulda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqımızın adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıb, etiqad azadlığı bərqərar olub. Ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsi dünyada uğurlu bir model kimi yüksək qiymətləndirilir. Ə.Muxtarov Hacıqabulda dini durumun sabit olduğunu və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini durum və sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsindəki nümunəvi siyasəti onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılır. Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Mübariz Qurbanlı gənc nəslin milli ruhda tərbiyə edilməsinin vacibliyinə də toxunub. O bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılmasının, savadlı milli kadrların hazırlanmasının və milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsinin dini durumun və sabitliyin tənzimlənməsi işinə müsbət nəticələr verəcəyini qeyd edib.

Dinin siyasiləşdirilməsi cəhdləri barədə də danışan Dövlət Komitəsinin sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. O, DQİDK-nın milli maraqlarımıza zidd olan yad dini ideologiyaların yayılmasının, eləcə də dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasında qabaqlayıcı amil kimi mütəmadi olaraq maarifləndirmə tədbirləri təşkil etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov gənclərin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorunmasında din xadimlərinin üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib. Həmçinin dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyini diqqətə çatdırıb.

Regional konfrans işini fevralın 28-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ HACIQABULDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 27-də Hacıqabulda Şirvan şəhər, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

Hacıqabuldakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.



# *Mübariz Qurbanlı:* "Ölkəmizin özünəməxsusluğu ondadır ki, İslam dövlətləri arasındakı problemlərdə münsif rolunu oynaya bilir"

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə İslam Əməkdaşlıq Təşkilatının Qahirədə keçirilən toplantısında müsəlman dünyasındakı xidmətlərinə görə mükafatla təltif edilib. Hörmətli Allahşükür Paşazadəyə verilən bu mükafat bütövlükdə Azərbaycana, dövlətimizin İslam dünyasındakı roluna verilən qiymət hesab edilə bilərmi?

Moderator.az-ın sualını cavablandıran Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı şeyxülislam Allahşükür Paşazadəni təbrik etməklə yanaşı, bu mükafatın dövlətimiz adına əhəmiyyəti ilə bağlı da maraqlı fikirlər səsləndirib:

"Misirin paytaxtı Qahirədə keçirilən şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyətinin də iştirak etdiyi İslam Əməkdaşlıq Təşkilatının (İƏT) birinci festivalı İslam ölkələri arasında əlaqələrin genişləndirilməsi və müsəlman dünyasında Azərbaycanın nüfuzunun artması baxımından böyük əhəmiyyətə malikdir.

İslam dünyasına xüsusi töhfələri olan şəxslərin arasında Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin də olması bizim İslam ölkələri arasında dini sahədə apardığımız siyasətə verilən dəyərin bariz nümunəsidir. Mən bu münasibətlə Şeyx Həzrətlərini təbrik etmək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycan İslam dünyasının bir parçasıdır. Prezidentimiz cənab İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatı və İslam dünyasında böyük nüfuza malik olması, 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan etməsi və bu çərçivədə görülən nəhəng işlər Azərbaycanın rolunu daha da artırmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülmüşdür. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurur.

Azərbaycanın özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, ölkəmiz İslam dünyasında, İslam ölkələrində müxtəlif məsələlərlə əlaqədar İslam dövlətləri arasında ki bu və ya digər problemlərdə münsif rolunu oynaya bilir. Azərbaycan hər bir İslam ölkəsi ilə eyni səviyyədə xoş və dostyana münasibətlərə malikdir. Misirə səfər çərçivəsində nümayəndə heyətinin keçirdiyi bir sıra görüşlərdə də bu məsələlər, həmçinin, Azərbaycanın multikultural və dini tolerantlıq dəyərləri, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyəti barədə məlumatlar verilib. Bu cür tədbirlər Azərbaycanda din sahəsində aparılan dövlət siyasətinin, ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa dəstək verməsinin beynəlxalq aləmdə təbliğ edilməsi, eləcə də ölkəmizin tolerantlıq təcrübəsinin yayılması işinə böyük töhfə verir.

Eyni zamanda, ölkəmizdəki dini və milli dözümlülük ənənələri, nümunəvi dövlət-din siyasəti, Azərbaycan hökumətinin ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşması, tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi bazanın formalaşdırılması ölkəmizin beynəlxalq aləmdə nüfuzunun və yerinin daha da möhkəmlənməsinə gətirib çıxarır".

# Humanizm zirvəsi

Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş Azərbaycan milli və dini baxımdan həmişə tolerant ölkə olub və bu gün də ölkəmiz öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini və etnik qruplar burada özlərini nəinki yad hesab etməyib, hətta yerli əhali ilə qaynayıb-qarışıblar. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.




Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Azərbaycan xalqı daim bu bölgədə yaşayan insanlar arasında, dilindən və dinindən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasına əvəzsiz tarixi töhfələr verib. Dözümlülük, başqa dinlərin nümayəndələri ilə dinc yanaşı yaşamaq azərbaycanlıların milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Ölkəmizdə tarixən İslam dini ilə yanaşı, xristianlıq, yəhudilik dininə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq mühitində yaşayıblar.

Tam qətiyyətlə deyə bilərik ki, ölkəmizdə tolerantlıq ənənələrinin əsası məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulub. Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən və Ümummilli Lider Heydər Əliyev xalqın tələbi və istəyilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə böyük rol oynayıb.

Azərbaycanın dövlət-din münasibətlərindən danışarkən, ilk növbədə, onun tarixinə, Ulu Öndər Heydər Əliyev tərəfindən atılan təməl prinsiplərinə diqqət etməliyik. Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi, ilk növbədə, dinlə bağlı siyasətin sağlam, düzgün istiqamətdə qurulmasıdır. Bilavasitə Ulu Öndərin diqqət və qayğısı nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edilib, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normaları müstəvisində tənzimlənməsi, dini konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və daha yüksək səviyyədə inkişafı istiqamətində böyük işlər görülüb, dini icmaların və ibadət ocaqlarının fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradılıb. Onun həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradılıb, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanılıb, dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq güclənib. Məhz görülmüş bu işlər və atılmış addımlar sayəsində Azərbaycanda dövlət-din münasibətlərinin özünəməxsus modeli formalaşıb.

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir. "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüzillərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır" - deyən Prezident İlham Əliyev Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin misilsiz rol oynadığını vurğulayıb.

Prezident İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırıb. Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar ölkəmizdə mövcud olan milli-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilib.

Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Birinci vitse-prezident hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. O, xalqlar arasında dostluq münasibətlərinin, qarşılıqlı yardımlaşma və təcrübə mübadiləsinin vacibliyini daima vurğulayıb. Azərbaycanın zəngin tolerantlıq ənənələrinə diqqət çəkən Mehriban xanım Əliyeva ölkəmizdə yaşayan xalqların öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək, tarixən mövcud olmuş tolerantlıq mühiti barədə fikirlərini bölüşərkən deyib: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar".

Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Ümummilli Liderin adını layiqincə daşıyan fond onun xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ictimai həyatın ən müxtəlif sahələrində əsaslı işlər görür, ona müraciət edən vətəndaşların problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verir. Heydər Əliyev Fondunun fəaliyyəti, həm də insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına, bəşəriyyətin xilasına yönələn mütərəqqi ideallarn cəmiyyətdə möhkəm əsaslarla intişar tapmasına, fərqli dünyagörüşlərinin dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq, insanpərvərlik və nəciblik kimi müqəddəs dəyərlərin təbliğ edilməsinə yönəlib. Fondun hər kəsdə fərəh və qürur hissləri doğuran fəaliyyətinin əsasında, şübhəsiz, onun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı dayanır. Mehriban xanım Əliyevanın bəyan etdiyi kimi, fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var - insanlara təmənnasız yaxşılıq etmək: "Mən arzu edirəm ki, dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə isə, azacıq da olsa, əksilsin".

Ölkəmizdə tolerantlıq düşüncəsinin inkişafında xüsusi xidmətləri olan fondun vətənpərvər fəaliyyəti sayəsində Azərbaycanın bir sıra mənəvi inciləri dünya qeyri-maddi mədəni irs siyahısına salınıb, respublikamızın müxtəlif sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun aparıldığı məkana çevrilməsi prosesi bir qədər də sürətlənib.

İctimai-siyasi fəaliyyəti boyu humanitar, sosial sahələri daim diqqət mərkəzində saxlayan Mehriban xanım həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində çoxsaylı layihələrə, mühüm işlərə imza ataraq öz aktiv fəaliyyəti ilə dünyada kifayət qədər rəğbət qazanıb. Birinci vitse-prezident təyin edildiyi 2 il müddətində ölkənin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyevanın fəaliyyətinin əsasını Azərbaycan xalqının rifahı, sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problem-

davamı səh. 7

əvvəli səh. 6

lərinin həlli təşkil edir. O, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı istiqamətində bir çox işlər görüb, bu iki il müddətində məcburi köçkünlər üçün yaşayış kompleksləri tikilib istifadəyə verilib. Məcburi köçkünlərin sosial həyat şəraitinin yaxşılaşdırılması Mehriban xanımın apardığı siyasətin özəyini təşkil edir.



Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin, respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqəti Mehriban xanımın necə insanpərvər və humanist olduğunun əyani sübutudur. O, ölkəmizin müstəqilliyini və ərazi bütövlüyünü qoruyarkən sağlamlığını itirmiş insanların sosial müdafiəsinin dövlət rəhbərliyi üçün Vətənimizin hərbi müdafiəsi qədər önəmli və vacib məsələ olduğunu göstərdiyi diqqət və qayğı ilə bir daha nümayiş etdirir.

Siyasətinin əsasını insanpərvərlik amili təşkil edən Mehriban Əliyevanın təşəbbüsü ilə indiyə qədər 4 amnistiya aktı qəbul olunub ki, bu da 40 mindən artıq şəxsə şamil olunub.

Ötən 2 il ərzində Mehriban Əliyeva həm ölkə daxilində, həm də beynəlxalq aləmdə uğurlu siyasi fəaliyyətini bir daha sübut edib. Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva bir sıra beynəlxalq tədbirlərdə ölkəmizi təmsil etməklə yanaşı, "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransın təşkil edilməsində xüsusi rol oynayıb. Konfransda Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi tarixi yol, onun yaradıcıları və qazandığı uğurlar, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, diplomatik uğurları, o dövrdə hərbi, mədəni, sənaye sahələrində həyata keçirilən islahatlar barədə İtaliya ictimaiyyətini məlumatlandırıb.

Dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərən Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə son bir neçə ildə ölkəmizdə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir. Bu günlərdə Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Gəncədə "İmamzadə" dini kompleksini ziyarət etmələri dinimizə göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Dinlərarası, mədəniyyətlərarası münasibətlərin qurulmasında, o cümlədən multikultural dəyərlərin inkişafında göstərdiyi xidmətlərə görə də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva II dərəcəli "Müqəddəs Mələksima Knyaginya Olqa" ordeni ilə təltif edilib. Bu orden Mehriban xanımın fəaliyyətinə verilən böyük dəyərin göstəricisi hesab olunur.

Mehriban xanım Əliyeva ilk növbədə milli maraqların keşiyində durur. Onun şəxsi təşəbbüsü ilə milli musiqimizin, ədəbiyyat və poeziyamızın inkişafı ilə bağlı olduqca mühüm proqramlar həyata keçirilir, muğamımızın dünyada tanınması istiqamətində də böyük işlər görülür. Eyni zamanda, Mehriban xanım sülh və tolerantlığın yayılması, dünyada humanizm dəyərlərinin bərqarar olması üçün müntəzəm olaraq tədbirlər həyata keçirir. O, eyni zamanda səhiyyə və sosial məsələlərə böyük həssaslıqla yanaşır, talassemiyalı xəstələrin müalicəsinə, o cümlədən bu xəstəliyin profilaktikası üzrə maarifləndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini verir. Bununla yanaşı, Mehriban xanım ölkədə idmanın inkişafına da mühüm töhfələr verib. Məhz Mehriban xanımın sayəsində Azərbaycanda idmanın gimnastika növü xeyli inkişaf edib, ölkəmiz bu sahədə dünyada layiqincə təmsil edilir, Azərbaycan mötəbər beynəlxalq yarışlara ev sahibliyi edir.

Mehriban xanım təhsil, elm, incəsənət sahələrində mühüm strateji addımlar atır. Təhsilə, elmə böyük dəstək verən Birinci vitse-prezident "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yeni məktəblərin tikilməsinə, təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsinə lazımi şərait yaradır. Mehriban xanım Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin əsas istiqamətləri sırasında təhsilin mühüm yer tutması təsadüfi deyil, çünki o, dövlətimizin gələcəyini təhsilin inkişafında görən Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik konsepsiyasına əsaslanır.

Bütün bunlar Mehriban xanım Əliyevanın bir insan, şəxsiyyət və dövlət xadimi kimi necə yüksək keyfiyyətlərə malik olduğunu bir daha sübut edir. Tam əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva müstəqil dövlətimizin inkişafı və tərəqqisinə, milli dəyərlərin qorunub saxlanmasına, xalqın sosial-mədəni inkişafına böyük töhfələr verir və bundan sonrakı fəaliyyətində də bunun şahidi olacağıq.

**Mübariz QURBANLI,**
Yeni Azərbaycan Partiyasının İcra Katibinin müavini
*"Azərbaycan" qəzeti, 21 fevral 2019-cu il*

# «Mənəvi dəyərlərimiz gələcəyimizdir»

Gənclər üçün Təhsil Mərkəzinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə fevralın 20-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) "Mənəvi dəyərlərimiz gələcəyimizdir" mövzusunda konfrans keçirilib.




Tədbirdə Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra "Oxu!" sənədli filmi nümayiş olunub.

Mərkəzin icraçı direktoru Fəxrəddin Həsənzadə çıxış edərək tədbirin əsas məqsədinin gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğini gücləndirmək, unudulmaqda olan dəyərlərimizin qorunması işinə töhfə vermək olduğunu bildirib. F.Həsənzadə regionlarda da bu istiqamətdə silsilə tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

ADBTİA-nın prorektoru Təhminə Tağızadə mövzunun əhəmiyyətinə toxunub. O, xalqımızın formalaşmasında mühüm rol oynayan milli-mənəvi dəyərlərin dövlətçiliyimizin möhkəmlənməsində də xüsusi önəm daşıdığını qeyd edib. T.Tağızadə milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasında gənclərin üzərinə böyük vəzifə düşdüyünü vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə bildirib ki, milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Milli-mənəvi dəyərləri qorumağın ən ümdə vəzifələrimizdən biri olduğunu diqqətə çatdıran Komitə sədri qeyd edib ki, günümüzdə bu dəyərləri təhdid edən müxtəlif amillərlə rastlaşırıq. Zaman keçdikcə milli-mənəvi dəyərlərə münasibətdə də müxtəlif dəyişikliklər, yeni yanaşmalar ortaya çıxır. Lakin elə dəyərlər də var ki, onlar daimidir. Onun sözlərinə görə, bu dəyərləri, milli xüsusiyyətləri, adət-ənənələri qorumaq zəruridir. Əks təqdirdə, dünyada gedən mədəniyyətlərarası qovuşmada böyük təsir gücü altında mədəniyyətlərin də, milli adət-ənənələrin də assimilyasiyası prosesi gedə bilər. Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdiriləcək. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. O, dövlət başçısının Fərmanı ilə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən milli-mənəvi dəyərlərin düzgün təbliği istiqamətində kompleks tədbirlər həyata keçirildiyini, kiçik həcmli video-çarxların, sənədli filmlərin hazırlandığını bildirib. DQİDK sədri Fondun dəstəyi ilə çəkilən "Oxu!" adlı sənədli filmin xurafatla mübarizəyə həsr olunduğunu, filmdə cəhalətin, elmsizliyin yol açdığı mənəvi boşluqlar və bunun nəticəsində xurafat hallarının artmasının yaratdığı təhlükələrin işıqlandırıldığını deyib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# «Oxu!» sənədli filminin təqdimatı və dini maarifləndirmə məsələlərinə dair «dəyirmi masa» keçirilib

Fevralın 8-də Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Oxu!" sənədli filminin təqdimatı və dini maarifləndirmə məsələlərinə dair “dəyirmi masa” keçirilib.



Tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev deyib ki, bu gün bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir. Azərbaycanın dünya üçün tolerantlıq nümunəsi olduğunu qeyd edən Ş.Hacıyev bildirib ki, bu gün dünya dövlətləri ölkəmizin multikulturalizm və tolerantlıq modelinə böyük maraq göstərir. Dövlətimiz bütün dini konfessiyalar üçün bərabər münasibət mühiti yaradır.

Dünyada dini zəmində, eləcə də məzhəblərarası ədavətin qızışdırılması yolu ilə münaqişə ocaqları yaradılsa da, ölkəmizdə buna qarşı səmərəli mübarizə aparılır.

DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan güclü dövlət quruculuğu istiqamətində möhkəm dayaqlar üzərində irəliləyir və bu dayaqlardan biri, bəlkə də birincisi xalqımızın öz milli-mənəvi dəyərlərinə bağlılığıdır. M.Qurbanlının sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşması istiqamətində həyata keçirdiyi siyasətin əsasında da bu dayanır. Dövlət Komitəsinin sədri onu da vurğulayıb ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul model kimi qəbul olunur və bəyənilir. Bütün bunlar həm də Ümummilli Liderimizin siyasətini layiqli formada davam etdirən Prezident İlham Əliyevin uğurlarının nəticəsidir.

Filmin əhəmiyyətindən də danışan DQİDK-nın sədri Mübariz Qurbanlı belə maarifləndirmə vasitələrinə daha çox ehtiyac olduğunu deyib. Bildirib ki, xurafat cəmiyyətin inkişafının qarşısını alan ən böyük amildir. Dövlət Komitəsinin sədri Azərbaycan xalqının milli maraqlarına real və potensial təhlükə mənbəyi olan dini ekstremizmi, radikalizmi təbliğ edən cərəyanlarla mübarizə aparılmasının zəruriliyinə, gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinin qarşısının alınması üçün dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə diqqət çəkib.

Filmin nümayişindən sonra gənclərin dini maarifləndirilməsi mövzusu və film ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Azərbaycan İlahiyyat İnstitutunun birillik fəaliyyətinə həsr olunan tədbir baş tutub

Fevralın 8-də Azərbaycan İlahiyyat İnstitutunun (AİI) birillik fəaliyyətinə həsr olunan tədbir keçirilib.



Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Rektor Ceyhun Məmmədov AİI-nin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində yaradıldığını deyib. Bildirib ki, institutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində ixtisaslı kadrların hazırlanmasıdır.

Ceyhun Məmmədov Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Bildirib ki, AİI-nin yaradılması dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə qayğının ən böyük göstəricilərindəndir.

Rektor ötən bir il ərzində institutun gördüyü işlər, fəaliyyət istiqamətləri və hədəfləri haqqında məlumat verib.

DQİDK-nın sədri Mübariz Qurbanlı institutun birillik fəaliyyətini yüksək qiymətləndirib. O, institutun yüksəkixtisaslı kadrlar hazırlanması üçün əlverişli təhsil mühiti yaradacağına, gənclərin başqa ölkələrə dini təhsili almağa getməsinin qarşısının alınacağına, dini məbədlərimizin yüksəkixtisaslı din xadimləri ilə təmin olunacağına ümidvar olduğunu deyib.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov Azərbaycanın din sahəsində uğurlu siyasət həyata keçirdiyini söyləyib. Vurğulayıb ki, Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır, dini tolerantlıqla bağlı dünyaya ciddi mesajlar verir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev institutun yaradılmasını ölkəmiz üçün əhəmiyyətli hadisə kimi qiymətləndirib.

Cəmiyyətimizdə dini təhsilə böyük tələbat olduğunu deyən Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein İlahiyyat İnstitutunun Azərbaycanın dini həyatında xidmətləri olacaq layiqli məzunlar yetişdirəcəyini vurğulayıb.

Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev qeyd edib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ilə ölkədə bu dəyərləri qoruyan və təbliğ edən din xadimləri yetişəcək.

Milli Məclisin deputatı Fazil Mustafa din sahəsində kənar təsirlərdən uzaq, milli düşüncəyə sahib, dövlətçiliyimizə sadiq mütəxəssislərə ehtiyac olduğunu deyib, institutun bu cür kadrlar yetişdirəcəyinə inamını ifadə edib.

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, AİI rəhbərliyi yanında İctimai Nəzarət Şurasının sədri Əliməmməd Nuriyev istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması baxımından AİI-nin fəaliyyətini yüksək qiymətləndirib.

Fələstinin ölkəmizdəki səfiri Nasir Əbdül Kərim AİI-nin məqsəd və hədəflərini müsbət dəyərləndirib, instituta fəaliyyətində uğurlar arzulayıb.

Avropa Yəhudiləri Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev AİI-nin yaranması və fəaliyyətinin birilliyi münasibətilə institut heyətini təbrik ediblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətindən bəhs edən “Dəyərlərin izi ilə” sənədli filmi nümayiş olunub.

# Dövlət Komitəsində görüşlər

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 15-də Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarş ilə görüşüb.

İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində daima bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə edən M.Qurbanlı Mərakeşin Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalına münasibətdə tutduğu ədalətli mövqeyinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Respublikamızdakı dinlərarası harmoniya, tolerantlıq və



həmrəylik mühiti barədə danışan Komitə sədri bildirib ki, Ulu Öndər Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşduğu tarixi məkan kimi indi də eyni funksiyanı uğurla yerinə yetirir. Prezident İlham Əliyevin böyük tarixə malik dini məbədlərimizin bərpası, dini icmalara qayğısı sahəsində ardıcıl tədbirlər həyata keçirməsi dövlətimizin məqsədyönlü siyasətinin tərkib hissəsidir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mərakeş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarş Azərbaycanda tolerantlığın yüksək səviyyədə olmasının artıq bütün dünyanın etiraf etdiyi həqiqət olduğunu vurğulayıb. Səfir İslam həmrəyliyinə nail olunması kimi mühüm missiyanı üzərinə götürən Azərbaycanın bu təşəbbüsünün təqdirəlayiq hal olduğunu və müsəlman aləmində dəstəkləndiyini deyib. M.A.Embarş Dövlət Komitəsinin tabeliyində yaradılan Azərbaycan İlahiyyat İnstitutunun Mərakeşin müvafiq təhsil ocaqları ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıb.

* * *

DQİDK sədri Mübariz Qurbanlı fevralın 23-də İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin baş pastoru və yepiskopu Joakim Lündqvisti qəbul edib.



Azərbaycanın tarixən müxtəlif konfessiyaların, xalqların, eləcə də ayrı-ayrı etiqad və inanclara malik etnosların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ölkə olduğunu bildirən M.Qurbanlı qeyd edib ki, bu gün ölkəmizdə vicdan azadlığının təmin edilməsi, dini, milli münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, tolerant və multikultural mühitin qorunub-saxlanılması istiqamətində ardıcıl addımlar atılır. Komitə sədri 2016-cı ildə İsveçə səfərini və keçirdiyi görüşləri xatırladaraq bu görüşlərin əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu vurğulayıb, "Həyat Sözü" dini icmasının fəaliyyətinin mövcud qanunvericiliyə müvafiq olduğunu, ölkəmizdə keçirilən dini xarakterli tədbirlərdə yaxından iştirak etdiyini diqqətə çatdırıb.

"Həyat sözü" beynəlxalq kilsəsinin nümayəndələrinin Azərbaycana dəfələrlə səfər etdiyini diqqətə çatdıran Joakim Lündqvist ölkəmizə gəlişindən məmnunluğunu ifadə edərək Azərbaycandakı tolerant və dinlərarası münasibətləri, ölkəmizin ötən illər ərzində bütün sahələrdə çox böyük inkişaf yolu keçdiyini qeyd edib.

Sonda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 20-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları ilə görüşüb.

Tələbələri salamlayan Dövlət Komitəsinin sədri layihənin Azərbaycanın tolerantlıq modeli ilə əyani tanışlıq, eləcə də bu dəyərlərin beynəlxalq aləmdə təbliği və təşviqi baxımından önəminə toxunub.

Daha sonra layihə iştirakçıları ölkəmizdəki multikultural və həmrəylik mühiti, dövlətin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət və fəaliyyət, eyni zamanda Azərbaycan həqiqətləri barədə məlumatlandırılıblar. Mübariz Qurbanlı bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Xalqımızın minilliklər boyu formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və



beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Komitə sədri diqqətə çatdırıb ki, dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını həm dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə, tarixi-dini abidələrin bərpasına münasibətdə, həm də qanunvericiliyin mahiyyətində açıq aydın görmək mümkündür.

Azərbaycan həqiqətlərindən söz açan Mübariz Qurbanlı Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirdiyini, Azərbaycan ərazisinin iyirmi faizini işğal altında saxladığını vurğulayıb.

Daha sonra VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin müxtəlif ölkələrdən olan tələbələrini maraqlandıran suallar cavablandırılıb və onlara Dövlət Komitəsinin işğal altındakı torpaqlarımızda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimiz, o cümlədən ölkəmizdəki dinlərarası harmoniya barədə ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

* * *

DQİDK sədrinin müavini Səyavuş Heydərov fevralın 11-də Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox və Almaniyanın Yena şəhərindəki Yevangelik lüteran dini icmasının üzvü, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının pastoru Lemke Qothard Günter Valter ilə görüşüb.

Dövlət Komitəsi sədrinin müavini qonaqlara ölkəmizdəki dinlərarası harmoniya və dövlətin bu istiqamətdə həyata keçirdiyi nümunəvi siyasət barədə məlumat verib. Bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda nümunəvi multikultural və birgəyaşayış modeli formalaşıb. Xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri sivilizasiyalar arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir.

Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox uğurlu multikulturalizm və tolerantlıq modeli, dinlərarası münasibətlər sərgiləyən Azərbaycanın bu sahədəki nailiyyətlərinin bütün dünyada maraq doğurduğunu deyib. Həmçinin ölkəmizdəki lüteran icmasının fəaliyyətinə göstərilən dəstəyə görə məmnunluğunu ifadə edib.

* * *

Fevralın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov Bakıda keçirilən Azərbaycan-Slavyan Gənclərinin birinci Forumunun iştirakçıları ilə görüşüb. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasət nəticəsində ölkəmizdə inkişaf edən tolerant mühit barə-



də söz açan sədr müavini Azərbaycanda dinlərarası harmoniyanın yaradılmasına, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdırıb. Bildirib ki, dini konfessiyaların qanun qarşısında bərabər olması, digər dinlərə məxsus ibadətgahların bərpa edilməsi, dini icmalara mütəmadi maliyyə yardımlarının ayrılması Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir. Bütün dinlərin nümayəndələri bərabərhüquqlu şəkildə fəaliyyət göstərir və bu baxımdan Azərbaycandakı mövcud dövlət-din münasibətləri modeli beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur.

Azərbaycan-Slavyan Gənclər Assosiasiyasının (ASGA) sədri Səbuhi Abbasov qurumun fəaliyyətindən danışıb. Qeyd edib ki, təşkilatın əsas məqsədi respublikamızı Slavyan ölkələrində təbliğ etmək, gənclərarası innovativ informasiya mübadiləsini təmin etməkdir. S.Abbasov ASGA-nın bu gün bir sıra rəsmi dövlət qurumları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıraraq bu qurumların sırasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xüsusi rolu olduğunu vurğulayıb.

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasında Gənclər Parlamentinin sədri Mariya Voropayeva ASGA-nın həyata keçirdiyi yeni layihənin Azərbaycan və Rusiya gənclərinin ikitərəfli əlaqələrinin inkişafına, parlamentlər səviyyəsində əməkdaşlığın genişləndirilməsinə, beynəlxalq parlament təşkilatların-



da qarşılıqlı fəaliyyətə töhfə verəcəyini deyib.

Moskva Azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının Azərbaycan İcması Evi adı altında birləşməsinin böyük əhəmiyyət kəsb etdiyini, bunun diasporun yüksək səviyyədə inkişafı üçün uğurlu addım olduğunu qeyd edib.

Rusiya-Türkiyə İctimai Forumun məsul katibi, siyasi ekspert Aleksey Bıçkov isə belə görüşlərin hər iki ölkənin gəncləri üçün vacib olduğunu qeyd edib. Vurğulayıb ki, iki ölkə arasındakı dostluq əlaqələri bu gün gənclərimizin ölkənin ictimai-siyasi həyatında fəal iştirakı ilə yanaşı, beynəlxalq miqyasda da ciddi uğurlar qazanmağının bariz nümunəsidir.

# SABİRABADDA "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK" MÖVZUSUNDA İKİGÜNLÜK SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabirabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə fevralın 21-22-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

İkigünlük seminar-müşavirədə rayon İH başçısının ərazi nümayəndələri, bələdiyyə sədrləri, dindarlar, dini icma sədrləri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sabirabad Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov bildirib ki, cəmiyyətin, xüsusilə gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirləri mühüm rola malikdir. Natiq, eyni zamanda məzhəb ayrı-seçkiliyinə qarşı vəhdət və həmrəyliyin əhəmiyyətindən də danışıb.

Dövlət-din münasibətlərindən bəhs edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycan dövlətinin din siyasətinin prioritet istiqamətlərindən birinin məhz tolerantlıqla bağlı olduğunu bildirib. O qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasətin davamı olaraq Prezident İlham Əliyev tolerantlığı dövlət siyasəti səviyyəsinə qaldırıb. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə ölkəmizin multikultural mühitinin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir.

DQİDK sədrinin birinci müavini deyib ki, Azərbaycanda tarixən müxtəlif millətlərin və dinlərin nümayəndələri əmin-amanlıq şəraitində yaşayıblar. O, cəmiyyətimizin bu gün də tolerantlıq prinsiplərinə, multikultural ənənələrə sadiq qaldığını diqqətə çatdırıb. S.Salahlı ölkəmizdə dünyəvi dəyərlərə, bəşəri ideallara, eləcə də başqa dini dəyərlərə hörmət göstərildiyini deyib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Saleh Aslanov, Sabirabad rayon Gənclər və idman idarəsinin rəisi Nadir Quliyev, Sabirabad şəhər Heydər məscidi dini icmasının sədri Məhəmməd Əliyev dini radikal qrupların gənclər arasında təbliğat metodlarından danışıblar. Vurğulanıb ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin böyük rolu var.

İkigünlük seminar-müşavirədə DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub və tədbir iştirakçılarının sualları cavablandırılıb.

# HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ MAARİFLƏNDİRİCİ TƏDBİR BAŞ TUTUB





Fevralın 19-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (MN) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən birgə imzalanan "Tədbirlər Planı" çərçivəsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Azərbaycan qanunvericiliyində vicdan azadlığı və dövlət-din münasibətləri" mövzusunda maarifləndirici tədbir keçirilib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov tədbirdə geniş məruzə ilə çıxış edib. Ölkəmizdə mövcud olan ictmai-siyasi sabitlik, əmin-amanlıq, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından danışan S.Heydərov bildirib ki, din və vicdan azadlığı əslində insan haqlarının ayrılmaz hissəsidir. Əgər vətəndaşın vicdan azadlığı pozulursa, bu artıq yalnız cəmiyyətin inanclı təbəqəsinin problemi deyil, ümumi insan haqları problemidir. İnsan haqları və azadlıqlarının, o cümlədən din və vicdan azadlığının təmin olunması istənilən cəmiyyət və dövlətin ümumi inkişafı baxımından təməl prinsiplərdəndir. Səyavuş Heydərov ölkəmizdə din və vicdan azadlığının qanunlar çərçivəsində qorunduğunu, bu təməl prinsiplərin heç bir vəchlə məhdudlaşdırılmadığını diqqətə çatdırıb.

Azərbaycandakı mövcud dini durum, dövlətin bu sahəyə qayğısı, ölkəmizdə radikalizm meyillərinin yaranmasının səbəblərindən də danışan Səyavuş Heydərov radikalizmlə mübarizə sahəsində görülən işlər barədə görüş iştirakçılarına məlumat verib. Dini radikalizm və ekstremizmə qarşı mübarizə istiqamətləri haqqında iştirakçıları məlumatlandıraraq, maarifləndirmənin bu mübarizənin prioritet istiqaməti olduğunu vurğulayıb.

Dövlət Komitəsinin sədr müavini bu cür maarifləndirici tədbirlərin gənclərin milli-mənəvi dəyərlərimizə bağlılığı, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği baxımından çox böyük əhəmiyyət daşıdığını bildirib.

Görüşün sonunda iştirakçıların sualları cavablandırılıb və müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Bu gün gəncliyimiz milli-mənəvi və dini dəyərlərimizə sadiqliyi baxımından mövcud vəziyyəti adekvat qiymətləndirməyi çox yaxşı bacarır"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılovun yap.org.az saytına müsahibəsi*



***– Gündüz müəllim, məlumdur ki, Azərbaycanın uğurlu inkişafına qısqanclıqla yanaşan müəyyən dairələr müxtəlif vasitələrlə ölkəmizdə sabitliyi pozmağa çalışır. Bu prosesdə milli mənəvi dəyərlərimiz, dini sabitlik də hədəfə alınır. Belə halların qarşısının alınması üçün insanlar arasında geniş maarifləndirmə tədbirləri həyata keçirilir. Bu barədə nə deyə bilərsiniz?***

– Doğrudur, bu cür hallar var və onların qarşısının alınması istiqamətində müvafiq addımlar atılır. Bunlardan biri də cəmiyyətimizin maarifləndirilməsi işləridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində də maarifləndirmə işləri əsas yerlərdən birini tutur. Onu da qeyd edim ki, maarifləndirmə təkcə dinlə bağlı deyil. Çünki bu sahədə qarşımıza çıxan məsələlərin bir çoxu digər sahələrlə də əlaqəlidir. Bu baxımdan insanların, o cümlədən gənclərin maarifləndirilməsi işi kompleks şəkildə həyata keçirilməlidir. Ona görə də Dövlət Komitəsi müxtəlif qurumlarla birgə tədbirlər keçirir və həmin tədbirlər müxtəlif mövzuları əhatə edir.

Dini maarifləndirmə işi həm kəmiyyət, həm də keyfiyyət baxımdan yeni mərhələyə keçib. Demək olar ki, bu prosesi Bakı və digər şəhərlərlə yanaşı, regionlarda kəndlərə qədər apara bilmişik. Maarifləndirmə işinin bütün respublikanı əhatə etməsi üçün də müxtəlif qurumlarla əməkdaşlıq edirik. Bu prosesə ekspertləri, ziyalıları, elm xadimlərini cəlb edirik, eləcə də sosial şəbəkələrin imkanlarından istifadə edirik. Maarifləndirmə tədbirləri seminar, treninqlər, konfranslar, "dəyirmi masa"lar, diskussiyalar, filmlər vasitəsilə həyata keçirilir.

Bilirsiniz ki, DQİDK-nın nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu maarifləndirmə işlərində fəal rol oynayır. Fondun vasitəsilə bir neçə film çəkmişik ki, bu filmlər kifayət qədər uğurlu olub. Radikalizmə qarşı çəkilən "Şəhadət" və "Fitnə" filmləri demək olar ki, respublikanın bütün məktəblərində də nümayiş olunub. "Oxu!" filmi xurafata qarşı yönəlib, "Vəhdət qanımızdadır" filmi isə Azərbaycandakı İslam məzhəblərinin tarixən bir yerdə yaşamasının bariz nümunələrini özündə əks etdirir.

Bütün bunlarla yanaşı, maarifləndirmə işlərində çap materiallarının hazırlanması da vacib yer tutur. Komitəmizin mətbu orqanları olan "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti pulsuz şəkildə yayılır. Bütövlükdə, çap olunan dini ədəbiyyatın ümumi tirajı bəlkə də 100 mindən artıqdır. Təkcə 100-ə yaxın adda kitablar nəşr olunur.

Əsas fəaliyyət istiqamətlərindən biri də sosial şəbəkələr vasitəsilə maarifləndirmədir. Bu yöndə könüllü şəkildə qruplar formalaşdırılıb ki, bu qrupların səhifələri vasitəsilə maarifləndirmə işi aparırıq. Eləcə də sosial şəbəkələrdə Komitə rəhbərliyinin və əməkdaşlarının da səhifələri var.

***– Maarifləndirmə işlərinin nəticələri necədir?***

– Nəticələri ölkəmizdə dini durumun vəziyyətinə görə qiymətləndirmək olar. Əvvəlki illərlə müqayisədə dini durumun təhlili göstərir ki, bu gün cəmiyyətdə hər kəsin dini radikalizmlə bağlı məlumatı var. Ötən dövrdə cəmiyyətdə dini radikalizmlə bağlı məlumatlar yox səviyyəsində idi. Amma indi insanlar dini radikalizmin nə olduğu yaxşı bilir. Yəni biz dini radikalizmə qarşı cəmiyyətdə mənəvi immuniteti formalaşdıra bilmişik. Dini duruma gəlincə, zərərli saydığımız dini təriqətlər və cərəyanların fəaliyyəti son dövrlər zəifləyib. İstər İslamla bağlı dini radikalizm cəhdlərinin, istərsə də xristian dini yönündə missioner qrupların zərərli fəaliyyətinin qarşısı alınıb.

Hazırda bu gün üçün qarşımızda duran bir sıra hədəflər var. Əsas hədəflərdən biri milli kadrların hazırlanmasıdır. Bu, radikalizmlə mübarizədə ən effektli vasitələrdən biridir. Bilirsiniz ki, dövlət başçısının qərarı ilə Komitəmizin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Fevralın 9-da institutun yaradılmasının bir ili tamam olur. Artıq instutut tam fəaliyyətə başlayıb, ötən il tələbə qəbulu həyata keçirilib. Bu il də qəbul keçiriləcək. İnstitutun yaradılması bır sıra problemlərin həllinin açarı olacaq. Çünki gənclərimiz dini təhsil almaq üçün xaricə getməyəcək. Artıq öz ölkəmizdə buna imkan var. Xaricdə dini təhsil pulsuz idi. İlahiyyat İnstitutunda da təhsil pulsuzdur, bütün tələbələr təqaüd alır. Ehtiyacları varsa yataqxanalarla təmin olunurlar.

Eləcə də respublikamızda müvafiq olaraq din xadimlərinə maddi dəstək göstərilir. Ötən il ərzində 1000-dən artıq din xadiminə maddi dəstək göstərilib. Bu da dini durumun sabitləşməsi baxımından önəmli amildir. Çünki din adamlarına maddi dəstək göstərilməsə başqalarının bu sahənin doldurmasına şərait yaranır. Məsələn, düşünün ki, hansısa məsciddir, orada rəsmi din xadimi fəaliyyət göstərmir. Belə olan halda, qeyri-ənənəvi, zərərli, radikal qrupların həmin məscidə meyillənməsinə şərait yaranır. Bu cür məscidlər artıq Azərbaycanda yoxdur. Ölkədə fəaliyyət göstərən bütün məscidlərdə nəzarət tam təmin olunub. Bunun bir səbəbi də Mənəvi Dəyərlərin Təbliği Fondu vasitəsilə din xadimlərinə maddi dəstəyin göstərilməsidir. Bu da cənab Prezidentin din sahəsinə, o cümlədən dindarlarımıza qayğısının bir nümunəsidir.

***– Antiazərbaycançı mərkəzlərin əsas məqsədlərindən biri də gənclərimizi milli-mənəvi dəyərlərimizdən uzaqlaşdırmaqdır. Sizcə, həmin qüvvələr məqsədlərinə nail ola bilərmi?***

– Əlbəttə ki, bütün cəmiyyətimizə xaricdəki müəyyən mərkəzlərin gerçək məqsədləri məlumdur. Bu qüvvələrin Azərbaycan gənclərini özlərinin çirkin məqsədlərinə cəlb etməsi mümkün deyil. Hesab edirəm ki, gənclərimizin milli-mənəvi dəyərlərimizdən, milli maraqlarımızdan uzaqlaşdırılması yönündə atılan addımlar nəticəsiz bir cəhddir. Azərbaycan gənclərinin belə cəhdlərə adekvat reaksiyası göz önündədir. Gənclərin istər sosial şəbəkələrdə, istərsə də mənəvi dəyərlərimizlə bağlı nümayiş etdirdiyi mövqe onu deməyə əsas verir ki, bu cür cəhdlər effektsizdir. Bu gün gəncliyimiz milli-mənəvi və dini dəyərlərimizə sadiqliyi baxımından mövcud vəziyyəti adekvat qiymətləndirməyi çox yaxşı bacarır.

# ABŞ HELSİNKİ KOMİSSİYASI XOCALI SOYQIRIMININ 27-Cİ İLDÖNÜMÜ İLƏ BAĞLI BƏYANAT VERİB

ABŞ Helsinki Komissiyası Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı bəyanat verib.

Bəyanatda Xocalı şəhərinin məruz qaldığı misli görünməmiş qəddarlığın beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu, insan hüquq və azadlıqlarını pozduğu qeyd olunub. Ermənistan silahlı qüvvələrinin keçmiş SSRİ-inin 366-cı motoatıcı alayının köməyi ilə mühasirəyə alınmış Xocalı şəhərinə hücum edərək törətdiyi amansız hərəkətlərin dərin təsirlərinin indiyədək Azərbaycan xalqında hiss edildiyi bildirilib.

Bəyanatda bu faciənin anılmasının və həyatını itirmiş insanların xatirəsinin yad edilməsinin vacibliyi qeyd olunub və Azərbaycan xalqına dərin ehtiram izhar edilib.

1992-ci il fevralın 26-da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin yüzlərlə Azərbaycanlı qadın, uşaq və yaşlıları öldürdüyü qeyd olunub.

ABŞ Helsinki Komissiyasının sədri, Azərbaycan üzrə İşçi Qrupun üzvü, Nümayəndələr Palatasında Florida ştatını təmsil edən demokrat Əlsi Heystinqz Xocalı faciəsinin ildönümü ilə bağlı Konqresdə də ayrıca bəyanatla çıxış edib.

Konqresin üzvü öz bəyanatında 1992-ci ilin fevralın 26-da Xocalıda törədilmiş dəhşətli hadisələri anaraq 613 nəfərin amansızcasına qətlə yetirildiyini vurğulayıb. O, həmçinin 1994-cü ildə atəşkəs rejiminin əldə olunmasına baxmayaraq, Dağlıq Qarabağ daxil olmaqla Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğunu və 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətində qaldığını vurğulayıb. Ə.Heystinqz Azərbaycanın qaçqın və məcburi köçkünlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün milyardlarla vəsait sərf edildiyini, regionun iqtisadi inkişafı naminə önəmli addımlar atıldığını qeyd edib.

Bəyanatda, həmçinin Azərbaycan hökumətinin yalnız regionun sabitliyinə töhfə verdiyi deyil, bütün dünyada terrorçuluğa qarşı mübarizədə ABŞ-ın etibarlı müttəfiqi olduğu bildirilib. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Azərbaycanın dərhal Amerika xalqına həmrəylik nümayiş etdirərək bu mübarizədə ABŞ-a həlledici dəstək və yardım göstərdiyi, Əfqanıstanda "Sarsılmaz azadlıq" hərbi əməliyyatının bir hissəsi olaraq ABŞ-ın Azərbaycanın hava məkanından qeyd-şərtsiz istifadəsinə icazə verdiyini vurğulayıb. Bundan əlavə, Konqres üzvü beynəlxalq koalisiyanın Əfqanıstandakı hərbi qüvvələrə bütün tədarük və təchizatının Azərbaycanın təmin etdiyi quru və dəniz yolları vasitəsilə çatdırıldığını bildirib.

Sonda Ə.Heystinqz Konqresdəki Azərbaycan üzrə İşçi Qrupun üzvü kimi bu dəhşətli faciənin ildönümünün qeyd edilməsinin vacibliyini bildirib və Azərbaycan xalqına başsağlığını izhar edib.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini fanatizmə, xurafata, radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*



**4 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində "Dini icmaların 2018-ci il üçün yekun hesabatı və cari il üçün görüləcək işlər" mövzusunda;



**5 fevral** - Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Maqov kənd tam orta məktəbində "Qeyri-ənənəvi cərəyanlar və zərərli vərdişlərin cəmiyyətimizə mənfi təsirləri" mövzusunda;

**7 fevral** - Balakən RİH və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Mahamalar kənd tam orta məktəbində "Gəncləri dini radikalizm və digər zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "2018-ci ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda; DQİDK-nın və Sərhəd Qoşunlarının birgə təşkilatçılığı ilə Sərhəd Qoşunlarının Göytəpə şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Vətən sərhəddən başlayır, sərhədlərimiz milli dəyərimizdir" mövzusunda;




**11 fevral** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkilatçılığı ilə Cavanşir Qasımov adına Banbaşı kənd tam orta məktəbində "Gənclərin radikal dini cərəyanlardan qorunması" mövzusunda;

**12 fevral** - Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Yuxarı Tala kənd 4 saylı tam orta məktəbində "Mənəvi dəyərlərə sadiq Azərbaycan gəncliyi" mövzusunda;

**13 fevral** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Nizami RİH və Rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizm və radikal dini təriqətlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və QMİ-nin birgə təşkilatçılığı ilə "2018-ci ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda;

**14 fevral** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Şəhər Təhsil Şöbəsi (ŞTŞ) və Şəhər-Rayon Polis Şöbəsinin (ŞRPŞ) birgə təşkilatçılığı ilə Hirkan qəsəbə tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər və onların fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, ŞTŞ və ŞRPŞ-in birgə təşkilatçılığı ilə Parakənd kənd tam orta məktəbində "Dini radikalizm, erkən nikah və onların fəsadları" mövzusunda; Göyçay RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RPŞ-nin birgə təşkilatçılığı ilə Çaxırlı kənd tam orta məktəbində "Zərərli vərdişlərə, dini radikalizmə, erkən nikaha "yox" deyirik" mövzusunda;

**15 fevral** – Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və RPŞ-nin birgə təşkilatçılığı ilə F.Həşimov adına 3 saylı tam orta məktəbdə "Zərərli vərdişlərə qarşı birgə mübarizə" mövzusunda;

**19 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, RTŞ və rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə Əliabad qəsəbəsi 3 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimiz gənclərin gözü ilə" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Mingəçevir şəhər "Cümə" məscidi dini icmasının təşkilatçılığı ilə Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş "Şəhidlər ölməz vətən bölünməz" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar şəhəri "Mustafa Kazdal" məscidində "Xocalı soyqırımı XX əsrin faciəsidir" mövzusunda;

**20 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda "N" saylı hərbi hissədə "Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq ideologiyası əsasında milli-mənəvi dəyərlərin inkişafı və qorunub saxlanması" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞTŞ və ŞRPŞ-nin birgə təşkilatçılığı ilə Viravul kənd 1 saylı tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər və erkən nikaha qarşı mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞTŞ və ŞRPŞ birgə təşkilatçılığı ilə Vilvan kənd tam orta məktəbində "Gənclərin dini radikalizm və erkən nikahlardan qorunması" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax şəhər "Cümə" məscidi dini icmasının təşkilatçılığı ilə "Xocalı soyqırımı XX əsrin faciəsidir" mövzusunda;

**21 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RTŞ-nin birgə təşkilatçılığı ilə Katex kənd 2 saylı tam orta məktəbində "Gənclərin radikal və ekstremist meyillərdən qorunması" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Qubadlı RİH, Qubadlı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən Qubadlı rayonu 1 saylı tam orta məktəbində "Dini radikalizmin mahiyyəti və onun yaranma səbəbləri" mövzusunda; Göyçay RİH, rayonun Heydər Əliyev Mərkəzi və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı, şəhid Mübariz İbrahimova həsr olunmuş "Müqəddəslik zirvəsi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə RİH təşkilatçılığı ilə Uğurbəyli kənd məscidində "Xocalı soyqırımı qan yaddaşımızdır" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İsmayıllı şəhər "Cümə" məscidində Xocalı faciəsinin qurbanlarına həsr olunmuş anım mərasimləri; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar "Şəhidlik zirvəsi" mövzusunda;



**22 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar rayonu Çiyni kənd "Hacı Ağamirzə" məscidi dini icması və "Gələcək" İntellektual İnkişafa Yardım İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı qan yaddaşımızdır" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ-nin Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş anım mərasimləri; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və İdrak Hüseynov adına Osakücə kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı XX əsrin faciəsidir" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Şəki rayonu I Biləcik kənd tam orta məktəbində "Milli-mənəvi və dini dəyərlərimizi qoruyaq" mövzusunda;




**24 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və Qaraxıdır kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə 27-ci ildönümünə həsr edilmiş anım mərasimi;

**25 fevral** – Xocalı faciəsinin 27-ci il dönümü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələrinin nümayənədələrinin iştirakı ilə

davamı səh. 13

əvvəli səh. 12

Masallı şəhər Gənclər Mərkəzi, Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxanası, Xızı rayon Məmməd Arif Dadaşzadə adına Şorabad qəsəbə tam orta məktəbi, Sumqayıt şəhər Cümə məscidi və Tağıyev qəsəbəsində; Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə imzalanan Tədbirlər Planına əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Beyləqan rayon “N” saylı hərbi hissənin birgə təşkilatçılığı ilə Beyləqan rayonundakı “N” saylı hərbi hissədə;

**26 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı rayon Dəllər kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar anım mərasimi; Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və QMİ-nin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 27-ci ildönümünə həsr edilmiş anım mərasimi keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər milli-mənəvi, o cümlədən ölkəmizdə tarixən mövcud olan tolerant və multikultural dəyərlərin qorunması, dini radikalizm və ekstremizm kimi neqativ hallarla mübarizə məsələlərinə toxunublar. Dini radikalizmi yaradan səbəblər və onun müasir dövrdəki təzahürlərindən söz açılan tədbirlərdə bildirilib ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər.





Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbirlərdə çıxış edən natiqlər faciəsinin dəhşətlərindən də danışıblar. Qeyd ediblər ki, Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb.

Bundan başqa, çıxış edənlər Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılmasında, dövlət təsisatlarının yaradılmasında, hüquqi dövlət və demokratik cəmiyyət quruculuğunda, azərbaycançılıq məfkurəsinin formalaşmasında misilsiz xidmətlər göstərdiyini bildiriblər. Qeyd olunub ki, Ümummilli Lider Sovetlər dönəmində Azərbaycana rəhbərlik edərkən xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafına nail olmaqla yanaşı, milli-mənəvi dəyərlərimizin qorunması, ziyalılara diqqət və qayğının göstərilməsi, milli kadrların yetişdirilməsi kimi mühüm məsələləri diqqət mərkəzində saxlamışdır.

# DONALD TRAMP KİM ÇEN INI ÖZ DOSTU ADLANDIRIB

ABŞ Prezidenti Donald Tramp KXDR lideri Kim Çen Inı öz dostu adlandırıb və Şimali Koreyanın tezliklə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

“Vyetnam çiçəklənir. Əgər Şimali Koreya nüvəsizləşdirmə prosesinə qərar versə, o da beləcə inkişaf edəcək və bu, tezliklə baş tutacaq. KXDR nəhəng potensiala malikdir, bu, tarixdə indiyədək heç kimin əlinə düşməyən gözəl imkandır – bu, dostum Kim Çen In üçün şansdır”, - Donald Tramp özünün “Twitter” səhifəsində belə yazıb.

Kim Çen In və Donald Tramp ABŞ-KXDR sammitində iştirak etmək üçün dünən Vyetnamın paytaxtı Hanoya gəliblər.

Hələlik iki ölkə liderinin səfər və danışıqlar proqramı barədə yalnız fevralın 27-nə nəzərdə tutulan 20 dəqiqəlik qısa “təkbətək formatda” görüşün və ardından hər iki ölkənin nümayəndə heyətinin yüksək vəzifəli üzvləri üçün işgüzar naharın baş tutacağı məlumdur. Danışıqların əsas hissəsi isə fevralın 28-nə planlaşdırılıb.

Xatırladaq ki, ABŞ və KXDR arasında ilk sammit 2018-ci il iyulun 12-də Sinqapurda keçirilmişdi. Donald Tramp və Kim Çen In sammitin nəticələrinə əsasən birgə bəyanat imzalamışdılar. Pxenyan Koreya yarımadasının tam nüvəsizləşdirilməsinə hazır olduğunu bildirmiş, Birləşmiş Ştatlar isə bunun əvəzində KXDR-ə təhlükəsizlik zəmanəti vəd etmişdi.



# DONOR ÖLKƏLƏR YƏMƏNƏ 2,6 MİLYARD DOLLAR YARDIM AYIRIB



Cenevrədə keçirilən konfransda vətəndaş müharibəsi şəraitində olan Yəmənə 2,6 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi barədə razılıq əldə edilib.

BMT-nin himayəsi ilə keçirilən konfransda təşkilatın baş katibi Antonio Quterreş razılaşmanı yüksək qiymətləndirib və əvvəlki illə müqayisədə bu il yardım üçün 30 faiz daha çox vəsaitin cəlb olunduğunu bildirib.

Ayrılan vəsaitlə Yəməndə 24 milyon insana (ölkə əhalisinin təxminən 80 faizi) yardım göstərilməsi nəzərdə tutulur. A.Quterreş il ərzində əlavə yardım vəsaitlərinin olacağına da ümid etdiyini bildirib, çünki vətəndaş müharibəsinin tüğyan etdiyi ölkədə insanlara yardım üçün BMT-yə ümumilikdə 4,2 milyard dollar vəsait lazımdır.

# İran XİN: ölkə prezidenti Cavad Zərifin istefasını qəbul etməyib



İran Prezidenti Həsən Ruhani xarici işlər naziri Cavad Zərifin istefasını qəbul etməyib.

Bu barədə xarici siyasət idarəsinin rəsmi nümayəndəsi Bəhram Qasemi teleqram-kanalda məlumat yayıb.

Bundan əvvəl Cavad Zərif istefaya getdiyini elan etmişdi. O, bir qədər sonra “Jomhouri Islami” qəzetinə müsahibəsində bildirmişdi ki, partiya və fraksiyaların mübarizəsi İranın xarici siyasəti üçün “öldürücü zəhər” olacaq. Onun sözlərinə görə, razılaşma və daxili konsensus tələb edən xarici siyasət milli etimada əsaslanmalıdır.

İran parlamentinin 160 deputatı Həsən Ruhaniyə məktub ünvanlayaraq Cavad Zərifi xarici işlər naziri postunda saxlamağı xahiş edib. Prezident ölkənin Xarici İşlər Nazirliyinə və digər idarələrə minnətdarlığını bildirərək qeyd edib ki, onlar ABŞ-ın İran əleyhinə siyasəti ilə mübarizəyə mühüm töhfə verirlər. Həsən Ruhani bu mübarizənin önündə gedənlərdən birinin də Cavad Zərif olduğunu deyib. H.Ruhani C.Zərifin istefası ilə əlaqədar məktubunu belə cavablandırıb:

"Cənab Zərif! 25 fevral tarixli istefa məktubunuzu aldım. Siz Xarici İşlər Nazirliyinin layiqli yerinin qorunması və İranın xarici siyasətində ən yüksək səviyyəli rəsmi olaraq mənim tərəfimdən təsdiqlənən şəxssiniz. Sizin durmadan göstərdiyiniz səyləri alqışlayır, sizin istefanızı ölkənin mənafeyinə zidd hesab edir və onu qəbul etmirəm.

Mən hökumət və hətta prezidentə qarşı təzyiqləri tamamilə dərk edirəm. Biz xalqla bağladığımız əhdə sonuna qədər sadiq qalacağıq və bu çətin mərhələdən çıxacağımıza inanıram".

Xatırladaq ki, Cavad Zərif xarici işlər naziri postuna 2013-cü ilin avqustunda təyin olunub və onun xidmətləri siyahısında İranın nüvə proqramı üzrə sazişin imzalanması da var.

# İƏT XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 46-CI SESSİYASI KEÇİRİLƏCƏK

Martın 1-də Əbu-Dabidə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının 46-cı sessiyası keçiriləcək.

Sessiyanın gündəliyinə bir sıra siyasi, iqtisadi və sosial məsələlər, həmçinin müsəlman aləmi qarşısında duran problemlər daxil edilib. "İslam əməkdaşlığının 50 ili: tərəqqi və inkişafın yol xəritəsi" devizi altında keçiriləcək sessiyada təşkilata üzv ölkələr arasında əməkdaşlığın daha yüksək səviyyəyə çatdırılması istiqamətində iqtisadi əlaqələndirmə məsələləri ətrafında da fikir mübadiləsi aparılacaq.

Nazirlərin görüşünə İƏT-in baş katibi Yusif bin Əhməd əl-Usaymin də qatılacaq. İclasda 56 üzv ölkədən və beş müşahidəçi dövlətdən nümayəndələr iştirak edəcək. Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun da sessiyada iştirakı gözlənilir.

İƏT-in 50 illik yubileyi ilə üst-üstə düşən ikigünlük sessiyada Xarici İşlər nazirləri müsəlman ölkələrində sülh və sabitlik, habelə inteqrasiya və əməkdaşlıq məsələlərini müzakirə edəcəklər.

İƏT Xarici İşlər Nazirləri Şurası, həmçinin ekstremizmlə, dini istismar və kin və nifrətin qızışdırılması ilə mübarizə yolları ətrafında da fikir mübadiləsi aparacaqlar. Bundan başqa, təşkilata üzv ölkələr arasında humanitar, elmi, texnoloji, informasiya, hüquq və maliyyə sahələri üzrə əlaqələrin möhkəmləndirilməsi də müzakirə mövzuları olacaq.

# ISESCO-nun baş direktoru Roma Papasının yeni təşəbbüsünə münasibət bildirib



İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri dinlərarası əlaqələrin gələcəyinə dair Roma Papası Fransiskin yeni təşəbbüsünə münasibət bildirib.

Baş direktor Roma Papasının fevralın 3-də Birləşmiş Ərəb Əmirliklərinə başlayan səfəri çərçivəsində irəli sürdüyü təşəbbüsün ISESCO-nun son illər qəbul etdiyi sənədlərdə də öz əksini tapdığını vurğulayıb. Onun sözlərinə görə, mədəniyyətlərarası dialoqun gücləndirilməsi, müxtəlif dinlərin və təriqətlərin arasında tolerantlığın artırılması və onların dinc yanaşı yaşamasının təmin edilməsi bu təşəbbüsün əsas müddəalarıdır.

Əbdüləziz bin Osman əl-Tuveycri əlavə edib ki, ISESCO-nun bütün tədbirlərində müsəlmanlarla xristianlar arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın inkişafının dünyada sülhə və təhlükəsizliyə töhfə olduğu vurğulanıb. Baş direktor deyib ki, Roma Papasının ərəb ölkələrinə səfəri terrorizm, ekstremizm və dini zəmində münaqişələrə qarşı mübarizə kontekstində böyük əhəmiyyət kəsb edir.

ISESCO-nun baş direktoru 2014-cü ilin noyabrında Vatikandakı Apostol sarayında Papa Fransisklə görüşünü və katolik kilsəsinin başçısına təşkilatın "Qızıl qalxan" mükafatını təqdim etdiyini də xatırladıb.

# Pakistanın Baş naziri Hindistan rəhbərliyinə müraciət edib

"Bu iş həm sizin, həm də bizim nəzarətimizdən çıxa bilər". Bu sözləri Pakistanın Baş naziri İmran Xan Hindistan rəhbərliyinə müraciətində bildirib.

O qeyd edib ki, ölkəsi mülki şəxslərə zərər vermək istəmir: "Əməkdaşlığa hazırıq. Ancaq indi oturub, bu məsələni necə həll edəcəyimizi birlkdə danışmağımız lazımdır. Sağlam düşüncənin qazanması vacibdir".

Qeyd edək ki, Pakistan Hərbi Hava Qüvvələri fevralın 27-də ölkənin hava məkanını pozan Hindistana məxsus iki qırıcı təyyarəni vurub. Pakistan Xarici İşlər Nazirliyi bəyan edib ki, "Kəşmirdə Hindistan təyyarələrinin vurulmasının məqsədi özünümüdafiəyə istək və hazırlığın nümayişi olub. Pakistanın hava qüvvələri bu gün Pakistanın hava məkanından nəzarət xətti üzrə zərbələr endirib. Bu, Hindistan tərəfdən davam edən təcavüzə cavab zərbələri deyildi. Pakistan insan tələfatının qarşısını almaq üçün hərbi hədəflərə hücum etməyib.



Yeganə məqsəd hüququmuzu, özünümüdafiəyə istək və hazırlığımızı nümayiş etdirmək olub". Nazirik, həmçinin münaqişənin gərginləşməsinin məqsəd olmadığını, lakin məcburiyyət halında Pakistanın bunu etməyə tam hazır olduğunu vurğulayıb.

Artıq Hindistan və Pakistanın sərhədyanı bölgələri üzərindəki hava məkanı beynəlxalq tranzit uçuşlar üçün bağlanıb. Hazırda beynəlxalq uçuşlar həyata keçirən təyyarələr üçün digər marşrutlar axtarılır.

Pakistan, həmçinin İslamabad, Lahor, Multan, Feysəlabad, Sialkot hava limanlarına daxili və beynəlxalq uçuşları təcili olaraq dayandırıb. Öz növbəsində, Hindistan hökuməti Amritsar, Srinaqar, Cammu, Çandiqarh və Dehradun şəhərləri üzərində tranzit təyyarələr üçün hava məkanını bağlayıb.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər

**"Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu**

Qeydiyyat tarixi: 07 iyul 2011-ci il

Qeydiyyat №-si: 100111A1 – 544

Dini qurumun rəhbərinin qərarı və digər sənədlərə əsasən qurumun Nizamnaməsinin 1.10.3-cü bəndi yeni redaksiyada verilmişdir:

"1.10.3. Ana Tereza adına Şəfqət Evi – ibadətgah olan Şəfqət Bacılarının Monastırı (Bakı şəhəri, Xətai rayonu, Zığ yolu, ev 44H).

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 30 yanvar 2019-cu il

**"Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumu**

Qeydiyyat tarixi: 12 oktyabr 2009-cu il

Qeydiyyat №-si: 100109A2 – 02

Dini qurumun rəhbərinin qərarı və digər sənədlərə əsasən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun filiallarının Əsasnamə"lərində aşağıdakı dəyişikliklər edilmişdir:

- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Jen-Mironosits" Kafedral Soboru Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir;
- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Rojdestva Boqoroditsı" Soboru Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir;
- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Xaçmaz şəhəri "Svyato -Nikolskiy" Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir;
- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Gəncə şəhəri "Aleksandro-Nevskiy" Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir;
- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Sumqayıt şəhəri "Serafim Sarovskiy" Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir;
- "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Arxangela Mixaila" Kilsəsi filialının Əsasnamə"sinin üz qabığında "Yepiskop" sözü "Arxiyepiskop" sözü ilə əvəz edilmişdir.

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 08 fevral 2019-cu il

**Lənkəran rayonu Hirkan qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 717

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cahangirov İzzət Ağazaman oğlu, Qənbərov Gülmurad Əlif oğlu, Əliyev Əlibaba Mehrəli oğlu, Səfərova Nənənaz Səmid qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 08 fevral 2019-cu il

**Saatlı rayonu Qara Nuru kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 15 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 253

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəsulov Hököm Rəsul oğlu, Tasinov Abuzər XXX, Rəsulov Laçın Rəsul oğlu, Şahmuradov Səhəddin XXX dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəsulov Sabir Hököm oğlu, Rəsulov Radixan Fəxrəddin oğlu, Rayimov Jabbar Karimoviç, Yusupova Fatimə İzzət qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 11 fevral 2019-cu il

**Quba rayonu Qəcər-Zeyid kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 134

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Poladov Əmrah Osman oğlu, Səfərov Məcnun Rəhman oğlu, Əlislamov Koroğlu Rüstəm oğlu, Yusifov Şahmirzə Şahvəddin oğlu, Paşayev Bayram Qələm oğlu, Xəlilov Məmmədrəsul Qərib oğlu, Ömərov Əbilfərz Abgül oğlu, Həsənov Bayram Yaqub oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov Laçın Xasbala oğlu, Dəmirov Elşən Əmir oğlu, Poladov Samir Əmrah oğlu, Ömərov Ramik Əbilfərz oğlu, Nadirli Ənvər Ramiz oğlu, İbrahimov Süleyman Seyfulla oğlu, Balayev Vüqar Tahirmirzə oğlu, Niftəliyev Ramin Əsədulla oğlu, Əhmədpaşayev Fədai Məzahir oğlu, Poladov Məhəmmədəli Osman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

***Dəyişikliklərin qeydiyyat tarixi:***13 fevral 2019-cu il

**Oğuz şəhəri "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 282

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Salamov Hidayət Əhməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Cəlilli Rahim Şövkət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

***Dəyişikliklərin qeydiyyat tarixi:***13 fevral 2019-cu il

**Masallı şəhəri "Hacı Mirağa" məscidi dini icması**
Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 337

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən "Masallı şəhəri «Hacı Mirağa» məscidi" dini icmasının adı "Masallı şəhəri «Hacı Mirağa» məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın adı "Masallı şəhəri «İmam Əli» məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil olunmuşdur.

"Masallı şəhəri «İmam Əli» məscidi" dini icmasının hüquqi ünvanı "Masallı şəhəri, Bahadur Məmmədov, küçəsi, 12, "Hacı Mirağa" məscidi" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın hüquqi ünvanı "Masallı şəhəri, Bahadur Məmmədov küçəsi, 12, "İmam Əli" məscidi" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

***Dəyişikliklərin qeydiyyat tarixi:***15 fevral 2019-cu il

**Masallı rayonu Kalinovka kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 16 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 295

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən "Masallı rayonu Kalinovka kənd məscidi" dini icmasının adı "Masallı rayonu Kalinovka kənd məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın adı "Masallı rayonu Viləş kənd məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

"Masallı rayonu Viləş kənd məscidi" dini icmasının hüquqi ünvanı "Masallı rayonu, Kalinovka kənd məscidi" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın hüquqi ünvanı "Masallı rayonu, Viləş kənd məscidi" kimi Dini qurumların dövlət reyestrinə daxil olunmuşdur.

Bağırov Mütəllim Qasım oğlu, Mehbəliyev Məzahim Qurban oğlu, Əsgərov Sahib Abbas oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Məmmədağa Əliheydər oğlu, Məmmədov Qurbanəli Məmmədəli oğlu, Nurullayev Yunus Sabir oğlu, Axundov İmran Kazım oğlu, Məmmədov Fuad Məmmədağa oğlu, Əliyev Əli-İsgəndər Əlidamət oğlu, Ağayev Bəxtiyar Məmməd oğlu, Rüstəmov Məcid Siyasət oğlu, Əsgərov Elşad Abı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 19 fevral 2019-cu il

**Masallı rayonu Qodman kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 466

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Alişov Xeybulla Seyfulla oğlu, Əzimov Ətulla Bağı oğlu, Səfərov Gülhəsən Ağalı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kişiyev Şəhab Mehti oğlu, Məmmədov Məşkul Şəfi oğlu, Səmədov Əliağa Cəbrayıl oğlu, Mirzəcanov Çingiz Mürşüd oğlu, Əliyev Hətəm Əsgər oğlu, Hüseynov İntiqam Təzəxan oğlu, Əzimov Turab Ətulla oğlu, Əliyev Qədim Şaverdi oğlu, Əliyev Niyazi Namik oğlu, Allahverdiyev Ramin Allahverdi oğlu, Rəhmətov Cavanşir Qafur oğlu, Kişiyev Elmar Şahab oğlu, Əliyev Rza Mirzağa oğlu, Ələmov Səbuhi Möhübbət oğlu, Mürşüdov Tapdıq Şadulla oğlu, Rəhmətov Səlim Qafur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Alişov Xeybulla Seyfulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Kişiyev Şəhab Mehti dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

***Dəyişikliklərin qeydiyyat tarixi:***19 fevral 2019-cu il

**Lənkəran rayonu Sinovli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 26 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 383

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mehrəliyev Barat Nurməmməd oğlu, İsmayılov Paşa Həsən oğlu, Rəfiyev Şahab Teymur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəfiyev Şəfail Səyad oğlu, Şıxicanov Xalıq Paşa oğlu, Rəfiyeva Ülviyyə Mirəziz qızı, Mehrəliyeva Gülnarə Ağababa qızı, Əhədov Nicat Hüseyn oğlu, Mehrəliyev Ceyhun Barat oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

***Dəyişikliklərin qeydiyyat tarixi:*** 21 fevral 2019-cu il

**Şamaxı rayonu Məlhəm kəndi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A3– 433

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mürsəlov Firudin Hacı oğlu, Əkbərov Bakixan Qərib oğlu, Kərimov Məlik Usufəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Bədirov Arif Gümrah oğlu, Nəsirov Nəsib Əjdər oğlu, Yolçiyev Layiq Bahadur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

***Dəyişikliklərin qeydiyyat tarixi:***25 fevral 2019-cu il

## Ləğv olunanlar

**Masallı rayonu Qəriblər kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 12.01.2010-cu il
Qeydiyyat №-si: 100110A1-159

Masallı rayonu Qəriblər kənd məscidi dini icması təsisçilərinin 12.12.2018-ci il tarixli, 2 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

***Ləğv olunması:*** 05 fevral 2019-cu ildə qeydə alınıb.

**"Şərqdə Ulduz" Xristian incil dini icması**
Qeydiyyat tarixi: 25.01.2002-ci il
Qeydiyyat №-si: 23

"Şərqdə Ulduz" Xristian incil dini icması təsisçilərinin 30.01.2019-cu il tarixli, 01/2019 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

***Ləğv olunması:*** 14 fevral 2019-cu ildə qeydə alınıb.

CƏMİYYƏT və DİN
№ 02 (331) / Fevral 2019-cu il

## Oturaq həyatın dəhşətli fəsadı ortaya çıxdı



Amerikalı alimlər 1989-cu ildən aparılan araşdırma nəticəsində belə qənaətə gəliblər ki, uzun müddət bir yerdə oturub televizora baxmaq bağırsaq xərçəngi yaranmasına səbəb olur. Bu, xüsusilə 50 yaşadək insanlar arasında daha çox yayılıb.

Bu illər ərzində 89000 şəxs arasında araşdırma aparıb. Tədqiqatçılar belə qərara gəliblər ki, bir saat oturaraq televizora baxmaq onkoloji xəstəliyin yaranma riskini 12% artırır.

Televizor qarşısında 2 saatdan artıq oturan insanların xəstəliyə tutulma riski 70 faizdən çoxdur.

## Yaponiyada eyni anda 10 dili anlayan sistem yaradılıb




"Mitsubishi Electric" şirkətinin tədqiqatçıları eyni anda 10 dili anlayan sistem hazırlayıblar.

Yeni sistemin həm turizm, həm də digər sahələrdə istifadə edilməsi nəzərdə tutulur.

Yeni texnologiya müxtəlif dilləri hər bir şəxsin səsinə və leksikonuna uyğun olaraq başa düşmək üçün süni intellektdən istifadə edir.

Şirkətin mütəxəssisləri sistemdən əməli işdə istifadə etməmişdən əvvəl onun dəqiqliyini daha da təkmilləşdirmək niyyətindədirlər.

## Kosmosda orbital elektrik stansiya quraşdırılacaq

Çin alimləri kosmosda Günəş enerjisini toplayacaq və lazerin köməyi ilə Yerə ötürəcək orbital stansiya üzərində işləyirlər.

Artıq Çinin Çunçin şəhərində bu məqsədlər üçün istifadə olunacaq eksperimental bazanın tikintisinə başlanılıb. Yaxın 5 ildə ilk sınaq elektrik stansiyası stratosferə buraxılacaq. Layihəni ölkənin Kosmik Texnologiyalar Agentliyi həyata keçirir. Bu agentlik 2022-ci ildə Çinin xüsusi kosmik stansiyasının quraşdırılmasını da planlaşdırır.

Çinin kosmik proqramlarının həyata keçirilməsinə bu il 8 milyard dollar ayrılıb. Bu, ABŞ-dan sonra dünyada ikinci göstəricidir.

Çinli alimlər bildiriblər ki, yerüstü Günəş panellərindən fərqli olaraq, kosmik elektrik stansiya hava, mövsüm və vaxt dəyişikliklərindən asılı olmayaraq, 24 saat ərzində işləyəcək.

Qeyd edək ki, kosmosda Günəş panellərinin quraşdırılması və lazer vasitəsilə Yerə ötürülməsi layihələri ABŞ, Avropa, Hindistan və Yaponiyada da hazırlanır.

### Yadigar söz

**Lev Tolstoy**
*rus yazıçısı*

***Kim ki ağrı hiss edir - canlıdır. Kim ki başqasının ağrısını hiss edir - insandır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07: 15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri** ***(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Yuxuda xarici dilləri öyrənməyin yolu tapıldı



İsveçrənin Bern universitetinin alimləri belə nəticəyə gəliblər ki, insanlar yatarkən xarici dilləri öyrənə bilərlər.

Onlar insan beyninin aktivliyi ilə bağlı araşdırma aparıblar. Tədqiqatda iştirak edən insanlara yatarkən doğma dildə hansısa sözün başqa dildə olan analoqunu qulaq asdırıblar. Eksperimentin şəffaflığı üçün heç bir dildə olmayan, yani şərti sözlərdən istfadə edilib.

Nəticədə məlum olub ki, insanlar oyanərkən yuxuda eşitdikləri sözləri təkrarlayıblar. Ən yaxşı göstəricilər dərin yuxu mərhələsində əldə olunub.

## Olimpiadanın medalları köhnə telefonlardan hazırlanacaq

Tokio-2020 Yay Olimpiadasının Təşkilat Komitəsinin təşəbbüsü ilə 50 tonadək köhnə telefon, videokamera və noutbuk yığılıb.

Məqsəd həmin qurğulardan çıxarılacaq qiymətli metallardan medallar hazırlamaqdır.

Bildirilir ki, artıq 100 faiz bürünc, 85 faiz gümüş və 94 faiz qızıl əldə olunub.

Köhnə smartfon, noutbuk və videokameraların yığılması üçün iki il vaxt tələb olunub. Bu məqsədlə ölkə üzrə 4 minədək qəbul məntəqəsi açılıb.

**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894